E-1490

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
üzvlər– S.M.Rəsulova, F.İ.Məmmədov

etiraz verən patent müvəkkili X.Məmmədovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

08.01.2018-ci il tarixində iddiaçı "Karelia Tobacco Company, Inc." (GR), /ünvan:Athinon Street GR-24100 Kalamata (GR)/ "AMERICAN LEGEND" əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə IR 1119541 saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 11.01.2016 il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili X.Məmmədova tərəfindən Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, ÜİMT Beynəlxalq Bürosu Azərbaycan Respublikasının Patent Qurumuna baxılması üçün MXBT–nın 34 sinifdən olan əmtəələrə münasibətdə sahibi "Karelia Tobacco Company, Inc." (GR) olan "AMERICAN LEGEND" əmtəə nişanının IR 1119541 saylı beynəlxalq qeydiyyatını göndərmişdir. Lakin ekspertiza həmin nişana MXBT –nın 34 sinifdən olan mallara münasibətdə "AMERICAN TABENWAY S. DE R.L. (PA) " adına 30.06.2014-cü il tarixli "AMERICAN LEGEND" əmtəə nişanının N 2014 1342 saylı qeydiyyatına əsasən rədd cavabı vermişdir. Lakin müqayisə edilən qeydiyyatlar "Karelia Tobacco Company, Inc. (GR)" şirkətinin müəlliflik hüquqlarını pozur ki, həmin şirkət N 2014 1342 saylı göstərilən qeydiyyat üzrə təsvir də daxil olmaqla bir sıra dizayn emallarının müəlliflik hüquqlarının dizaynerlər tərəfindən ötürülməsi haqqında notarial qaydada təsdiq edilmiş 2010-cu il tarixli müqaviləyə əsasən həmin hüquqa malikdir. Mahiyyət etibarı ilə Panama şirkəti öz adına əmtəə nişanı qismində o təsviri qeydiyyata aldırmışdır ki, həmin təsvir sənədlərlə də təsdiq edildiyi kimi həmin an üçün müəlliflik hüququnun qorunması obyekti olmuşdur ki, bu da "Karelia Tobacco Company, Inc." (GR) şirkətinə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan respublikası Qanunun 5-ci maddəsinin 1-ci bəndi və 15-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq müvafiq təsvirə müstəsna hüquqlar verir. Eləcə də http://tm.kurzy.cz/karelia-tobacco-company-inc/ saytında açıq əlçatan olmaqla "AMERİCAN

LEGEND” əmtəə nişanı daxil olmaqla 39 əmtəə nişanın qeydiyyatı haqqında məlumat yerləşdirilmişdir. Yuxarıda qeyd edilənləri nəzərə alaraq Apelyasiya şurası "AMERICAN TABENWAY S. DE R.L. (PA)” adına “AMERICAN LEGEND” əmtəə nişanının N 2014 1342 saylı qeydiyyatına xitam verilməsi barədə qərar qəbul etmişdir. Yuxarıda şərh edilənlərə əsasən “Karelia Tobacco Company, İnc“ şirkəti Azərbaycan Respublikası ərazisində “AMERİCAN LEGEND” əmtəə nişanının IR 1119541 saylı beynəlxalq qeydiyyatının Azərbaycan Respublikası üzrə bərpa edilməsi haqqında qərar verilməsini Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili X.Məmmədovanın çıxışını dinləyib, hesab edir ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etdi ki, “Karelia Tobacco Company, Inc.” şirkəti tərəfindən “AMERICAN LEGEND” (IR1119541) adlı əmtəə nişanı 34-cü sinifin əmtəələri üzrə 20.04.2012-ci il tarixdə beynəlxalq qeydiyyata alınmış və onun qeydiyyatı 09.04.2015-ci il tarixdə Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir (2015/13 Gaz).

Ekspertiza “AMERICAN LEGEND” (IR1119541) adlı əmtəə nişanının qeydiyyata alınmasına dair rədd qərarını, Azərbaycan Respublikasında daha əvvəlki ilkinliyə malik olan 30.06.2014-cü il tarixində 34-cü sinifin əmtəələri üzrə “AMERICAN TABENWAY S. DE R.L. (PA)“ adına qeydiyyata alınmış “AMERICAN LEGEND” (2014 1342 nömrəli qeydiyyat) adlı əmtəə nişanına əsaslanaraq vermişdir.

Apellyasiya şurası qeyd etdi ki, “AMERICAN TABENWAY S. DE R.L. (PA)“ şirkətinə məxsus olan “AMERICAN LEGEND” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 34-cü sinifin əmtəələri üzrə 2014 1342 saylı qeydiyyatı Apellyasiya şurasının 30.01.2017 il tarixli E-1373 nömrəli qərarı ilə etibarsız sayılmış və onun qeydiyyatına xitam verilmişdir. Həmin Apellyasiya şurasının qərarı qüvvəyə minmişdir.

Apellyasiya şurası hesab edir ki, “Karelia Tobacco Company, Inc.” şirkəti tərəfindən “AMERICAN LEGEND” adlı əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci və 4-cü maddələrinin tələblərinə cavab verir və onun beynəlxalq qeydiyyatı (IR1119541) Azərbaycan Respublikası ərazisində qüvvədə qalmalıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrini və 6-cı maddənin “a, b” bəndlərini rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı:

1. “AMERICAN LEGEND” əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə 1119541saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 11.01.2016-cı il tarixli rədd qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili X.Məmmədova tərəfindən verilmiş ərizə əsaslı hesab edilsin və təmin olunsun.

2 “AMERICAN LEGEND” əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə 1119541saylı beynəlxalq qeydiyyata alınmasının imtina edilməsi barədə ekspertizanın 11.01.2016-cı il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. “AMERICAN LEGEND” əmtəə nişanının 34-cü sinifin əmtəələri üzrə 1119541 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri: Z.T.Hacıyev

Üzvləri: F.İ.Məmmədov,

S.M. Rəsulova